İbrahim Samiroğlu



# Qatilin izi ilə

BAKI 2022

İbrahim Samiroğlu “Qatilin izi ilə”

İnistagram.com/ibrahimsamiroglu

Facebook.com/ibrahimsamiroglu

Bakı 2022

“ Qatilin izi ilə Povesti detektiv janrda yazılıb. Kitabda iki nakam sevgili, Ruhin və Leyladan bəhs olunur. Həmdə, hüquq mühafizə orqanlarının böyük bir cinayətkar dəstəni aşkar edib, zərərsizləşdirilməsindən.”

# I

Yay aylarının ilk günləri idi. Bakıda istidən dayanmaq mümkün deyildi. Fərid, əlindəki saata tez-tez baxır, ətrafa boylanırdı. Hərdən ağzında nə isə deyirdi. Kimisə gözlədiyi bəlli idi. Bir qədər də keçdi. Və Fəridin gözlədiyi adam gəldi.

– Harada qalmışdın ə? İstidən əridim e. – Fərid dostu Ruhinlə görüşərək dilləndi.
– Marşrut gəlmək bilir ki? İki metr gedir, sonra dayanır. – Ruhin avtobusdan şikayət etdi.
– Hə, gedək. – Fərid yola işarə etdi.
– Bu iki dost universitet tələbəsi idi. Və qrup yoldaşı idilər. Bakı ətrafı kənddə yaşayan Ruhin, şəhərdə az-az olurdu. Yaşadığı ərazidə marşrut çətinliyi var idi. Şəhərə gəlib getmək, nisbətən çətin idi. Bir-birlərini çox vaxt universitetdə görürdülər. Hərdən də belə, çay içməyə gedəndə görürdülər bir-birilərini. Həmişə oturduqları çay evinə gəlib çatdılar. Pəncərənin önündə olan masada əyləşdilər. Ruhin ofisiantı çağırıb:
– Bir çaynik çay, mürəbbə, şokolad verərsən.
– Oldu. – ofisiant onlardan uzaqlaşdı.

Şəhərin nisbətən sakit yerində idi, bu çayxana. Ruhin sözlü adama oxşayırdı. Fərid bunu anlayıb:

– Ruhin, nə olub? danışmırsan, dinmirsən?
– Problemlər çoxdur e, Fərid. – Ruhin köksünü ötürdü.
– Niyə, nə olub? – Fərid dostundan söz qoparmaq adına dedi.
– Gediş-gəliş uzaqdır uniyə. – Ruhin dedi.
– Elə bu? Bunun fikrini edirsən? – Fərid əlini Ruhinin çiyininə vurdu.
– Ala yox e, səndə ki, bilmirsən. Kirayə ev axtarıram. Mən qaldığım yer çox pisdir.
– Hə, burda nə var ki? Gəl qal bizlə. – Fərid təklif elədi
– Nə bilim. Alınar səncə?
– niyə alınmır, kefsən e. – Fərid gülümsədi. Fərid dostuna kömək etmək istəyirdi. Çaylar gəlib çıxmışdı.

Fərid dostuna çay süzüb:

– Leyla ilə danışırsan? – sual verdi.
– Yox, O, hadisədən sonra yox. – Ruhin cavab verdi.
– Belə eləmə. Qız pis olar. – Fərid dostunu qınadı.

Ruhin universitetdə Leyla adında bir qızla sevgili idi. İndiki cavanların dediyi, iki günlük sevgiyə bənzəyə bilər. Bu yaxınlarda Ruhin, sevgilisi Leylanı üçüncü qrupun uşağı Tahirlə görmüşdü. Əslində, Leylanın deməsinə görə, onların arasında heç nə yoxdur. Oğlan özü yaxınlaşıb, Leyla da rədd edib. Bunu görən Ruhin zənn edib ki, onların arasında nə isə var. Qıza bunu bildirəndə, Leyla qətiyyətlə rədd edib. Ruhin isə Leylaya inanmayaraq onunla arası dəyib. İndi qızla küsülü idi.

– Başqa söhbət edək. Yeri deyil. – Ruhin söhbəti dəyişmək adına dedi.
– Yaxşı, nə deyirəm. Sənə görə deyirəm. – Fərid dostu ilə razılaşdı.

Ruhinin qəmli olması, Fəridi narahat edirdi. Həm, Ruhin ev tapa bilmirdi. Son vaxtlar, dostu ondan nə isə gizləyirdi. Səbəbini anlaya bilmirdi Fərid.

– Sabah uşaqlar yığışır, gələcəksən? – Fərid soruşdu.
– Yox. İşlərim var. – Ruhin, bikef dilləndi.
– Ruhin, sənə nə olub? Məndən nə isə gizlədirsən?

Ruhin cavab vermədi. Yox, Bu oğlana nə isə olmuşdu.

– Ruhin, sən mənim canım, nə isə olub? – Fərid yenə dedi.
– Yox. Heç nə olmayıb. – Ruhin çayından içib dedi.
– Yaxşı. – Fərid onunla razılaşdı.

Çaylarını içdilər. Hava qaralmışdı. Ruhin ayağa qalxıb:

– Qalxaq. Başım ağrıyır.
– İndi gəlmişdik ki, nə oldu? – Fərid də ayağa qalxdı.

Çayın pulunu ödəyib kafeni tərk etdilər. Avtobus dayanacağına qədər, heç biri danışmadı. Dayanacağa çatanda, Ruhin dostu ilə görüşdü.

– Oldu Fərid. Salamat qal. – Ruhin dostu ilə qucaqlaşdı.
– Salamat qal. Sabah, gəl ha. – Fərid universiteti nəzərdə tuturdu.

– Yaxşı. – Ruhin ondan uzaqlaşaraq, Avtobusa mindi.

Avtobus yerindən götürülərək, dayanacaqdan uzaqlaşdı. Fərid yaxınlıqdakı taksilərə yaxınlaşdı. Kök bir kişi onu görərək:

– Otur Qardaşoğlu. İndi çıxırıq. – kişi qapını açdı.

Fərid bir söz demədən, qapısı açıq maşına oturdu. Sürücü də əyləşib maşını işə saldı. Enli asfalta atılan maşın, taksilərdən uzaqlaşdı.

***

Gecənin keçməsinə baxmayaraq mənzilin işığı yanırdı. Barmaqları arasında közərən siqaretin közünü vurmurdu. Fikirdən ayılıb, siqareti söndürdü. Ruhinin bu fikirləri bitmək bilmirdi. Sabah bu evdən çıxırdı. Gedəcəyi yeri bilmirdi. Fəridin deməsinə görə, onlarla qala bilərdi. Həm, Fəridin qaldığı mənzil Universitetə yaxın idi. Ruhin isə, buradan universitetə 1 saata gedirdi. Bəlkə də, çox. Telefonu zəng çaldı. Bu vaxtı kim? Telefonu götürüb ekrana baxdı. Ekranda "Fərid" yazılmışdı. Dostunun bu vaxtı zəng etməsi qəribə idi. Açmaq istəmirdi. Düyməni basıb, zəngi dayandırdı. Amma, Fərid yenidən yığırdı. Dostunu nigaran qoymaq istəməyib zəngi açdı.

– Hə, Fərid. Nə olub, gecənin bu vaxtı?
– Heç, dedim, görüm nə edirsən. – Fərid cavab verdi.

– Zarafat edirsən? Bu vaxtı nə edirlər? – Ruhin sual verdi
– Normal insanlar yuxuda olur. Sən isə oyaqsan.
– Yox. Məndə yatmağa hazırlaşıram. – Ruhin dedi.
– Ev məsələsini fikirləşdin. – Fərid soruşdu.
– Hə. Sizlə qalmaq alınar? – Ruhin sual verdi.
– Niyə olmur, sənə demədim ki, gəl? – Fərid güldü.
– Yaxşı, yaxşı. Sağ ol. Sabah söhbət edərik. – Ruhin dostu ilə sağollaşıb, telefonu qapadı. Bir siqaret yandırmaq keçdi ürəyindən. Amma, yandırmadı. İşığı söndürüb, paltarını soyundu. Soyuq yatağı onu gözləyirdi. Yerinə uzanıb, uzaq xəyallara səyahət etdi.

Bakı Dövlət universitetinin birinci kurs tələbəsi idi. Bakıya oxumağa, uzaq kənddən gəlmişdi. Qışın çovğunlu vaxtında hazırlıqlara gedir, çalışır, universitetə daxil olmaq üçün, əlindən gələni edirdi. Atası Zahid, onu çox istəyirdi. Evin yeganə övladı olan Ruhin üçün, əlindən gələni edirdi. Maddi baxımdan onlar kasıb ailə idilər. Zahid kişi mal-qara otarır, gününün çoxunu örüş yerində keçirirdi. Ruhin bunlara rəğmən səylə çalışır, ata-anasının rahat yaşaması üçün, əlindən gələni edirdi. Anası həyətdə tərəvəz əkir, yetişəndə bazara aparır, satıb bir iki manat qazanırdı. Onlar palçıq evdə qalırdılar. Zahid kişi, təzə ev tikmək üçün, xeyli çalışırdı. Mal-qaradan satıb, bir az pulda yığmışdı. Amma, pul bəs etmədiyi üçün, ev tikmək arzusu baş tutmurdu. Rayon

icra hakimiyyətinə, kənd bələdiyyəsinə də müraciət etmişdi. Nə xeyri? Heç, veclərinə gəlirdi? Bir-iki nümayəndə gəlib baxmış, amma onlardan da bir səs çıxmamışdı. Ruhin kənddə təhsilini başa vurub, Bakı Dövlət Universitetinə qəbul oldu. Yaxşı ki, pulsuza düşdü. Yoxsa, yazıq kişi ödənişi necə edərdi. Hələ birinci kurs tələbəsi idi. Atası onun üçün ev kirayələdi. Həmişə ona nəsihət verəndə deyərdi ki, pis uşaqlardan uzaq ol. Səni daima pis yola çəkər, pis dost. Çalış ki, dürüst, ağıllı uşaqla dost ol. Atasının dediyi kimi oldu. Onun sözündən çıxmazdı, heç zaman. Yuxusu gəlməsə də, gözlərini yumaraq, yatmağa çalışdı.

***

Zəngli saatın səsi otağı bürüdü. Demək saat doqquz idi. Başını yastığa tulladı. On dəqiqə keçməmiş, zəngli saatın səsi, yenə eşidildi. Tələm-tələsik ayağa qalxdı. Vanna otağına keçdi. Əlini, üzünü yuyub, qurulandı. Paltarını dəyişib evdən çıxdı. Saat ona işləyirdi. Avtobus bu dəqiqələrdə dayanacağa gəlməli idi. Yeyin addımlarla yolun başına çatdı. İsti olduğu üçün, yaxasının düymələrini boşaltdı. Telefonu zəng çaldı. Cibindən çıxararaq zəngi açdı.

– Salam, Fərid.
– Salam, Ruhin. Gəlirsən? – Dostunun gümrah səsi eşidildi.

– Hə. Gəlirəm. Gözləmə məni. – Ruhin dedi
– Yaxşı. – Fərid deyib, telefonu qapadı.

Bakıda onun elə də tanışı yox idi. Qohumlardan, Cabbar əmisinin oğlu Rauf, bir də ki, Dostu, sirdaşı Fərid. Demək olar ki, Rauf onunla əlaqə saxlamırdı. Yəqin elə zənn edirdi ki, Ruhin onu narahat edər. Nə düşünür, düşünsün. Heç, Ruhin onu itirib axtarmırdı. Fikirdən ayılaraq, gözlədiyi avtobusun gəldiyini gördü. Yeni istifadəyə verilmiş avtobusa mindi. Gedəcəyi məsafə isə, nə az, nə çox düz, qırx beş dəqiqə idi. Qulaqcıqlarını çıxarıb, son zamanların dəb musiqisini qoşdu. Qulaqlarında səslənən musiqi ona xoş təsir bağışlayırdı. Xəyalı musiqidə olsa da, başının üstündə dayanan orta yaşlı qadını rahat bir şəkildə görə bilirdi. Qadın ona nədənsə, yaman kinli baxırdı. Bu baxışlarda, ayağa qalx, icazə ver oturaq kimi sözlər oxunurdu. Bir istədi ki, ayağa qalxmasın. Amma, atasının verdiyi tərbiyə buna imkan vermədi. Ayağa qalxıb qadına yer verdi. Qadın nazla keçib əyləşdi. Minnətli bir sağ ol da dedi. Başı ilə təbii. Görünür Ruhin, bu yolu ayaq üstə getməli olacaqdı. Ac olduğu üçün başı ağrıyırdı. Səhər tezdən yemək yeyə bilmirdi. Universitetə gedəndə isə, Marketdən yüngül qoğal alardı, almazdı. Gedəcəyi yerə qədər, beş dayanacaq var idi. İkisini keçmişdi. Demək üç dayanacaq da, ayaq üstə getməli olacaqdı. Nə edək, qismət. Musiqini söndürüb fikrini cəmlədi. Bu gün köçmək istəyirdi. Fərid təkid edirdi ki, gəl bizlə qal. Fərid özü üç qrup yoldaşı ilə

qalırdı. Bunlar Ruhinin də qrup yoldaşları idi. Üçü də sakit təbiətli oğlan idi. Ramil, Emin, Kamil. Kamil dağ kəndindən idi. Fəridin deməsinə görə, kamilin atası yaxşı balçı idi. Hətta Ruhin bir dəfə bu balın dadına da baxdı. Yaxşı bal idi. Dadına söz ola bilməzdi. Kamil kiçik bir banka da bal ona vermişdi. Hələ də soyuducu da qalırdı. Nə isə. Avtobus dayanacaqda dayandı və müvazinətini itirən Ruhin az qalsın yıxıldı. Tutacaqsan bərk-bərk yapışdı. Növbəti dayanacaqda aşağı endi. Bir qədər piyada gedib, Universitetinə çatdı. Universitetin qapısı ağzında, nə cür desən avtomobil var idi. Bu bahalı avtomobilləri idarə edənlər isə, Nazir uşaqları idi.

Bu avtomobillərdə azda olsa gözü yox idi. O, Zahidin oğlu idi. Saf, qəlbi təmiz, gözü tox Zahidin. Maşınlara gözucu nəzər yetirib, iri darvazadan həyətə daxil oldu. Qrup yoldaşı Səkinə, onu görüb üstünə qaçdı:

– Ruhin, Salam. Necəsən? – şıltaq qız, əl uzadaraq Ruhinlə görüşdü.
– Çox sağ ol, yaxşıyam Səkinə. – Ruhin də qarşılıq verdi.
– Səndən bir xahişim var. – Səkinə, üzücü görkəm aldı.
– Buyur. Gücüm çatan qədər kömək edərəm. – Ruhin dedi.
– Bilirsən, – qız udqundu. – Mən rayona getməliyəm.

Həmişəki şıltaq Səkinə, indi yaman kədərli idi. Bunu öyrənmək istəyirdi, Ruhin.

– Nə olub? – Ruhin soruşdu.

Anamın vəziyyəti yaxşı deyil. – qız sözləri deyib, üzünü yana çevirdi. Yəqin ki, ağlamağını gizlədirdi. Ana, yazıq analar. Ruhinin anası, necə əziyyətlə çalışırdı. Ruhin Universiteti bitirib, kəndə qayıtmaq istəyirdi. Kənddə dərs demək arzusu idi. Nə isə.

– Yaxşı. Narahat olma, deyərəm. Allah şəfa versin.
– Çox sağ ol. Səni yaxın bildiyim üçün dedim.
– Başa düşürəm, Narahat olma. – Ruhin dedi.
– Sağ ol, Ruhin. – deyib, ondan uzaqlaşdı.

Ruhin çox məşəqqətli ömür sürürdü. Bunu bir özü, birdə uca tanrı bilirdi. Allahı daima onun yanında idi.

Əli müəllimin otağına çatıb dayandı. Qapını yüngülcə döyüb açdı.

– Sabahınız xeyir, Müəllim.
– Sabahın xeyir, Ruhin sənsən? – Əli müəllim eynəyini aşağı endirərək, Ruhinə baxdı.
– Bəli. Mənəm. – Ruhin dedi.
– Keç otur. Ayaq üstə dayanma. – Əli müəllim Ruhinə yer göstərdi.

Əli müəllimlə Ruhinin arası yaxşı idi. Xətrini əziz tuturdu, Ruhin. Keçən ay, Ruhinə xeyli kömək etmişdi. Əli müəllim, universitetin ən sadə, ən yaxşı müəllimi idi.

– Hə. Cavan oğlan, de görək nə olub. – əli müəllim gülümsədi.
– Müəllim, kimya fakültəsindən Səkinə adlı qız var.

- Aha. – Əli müəllim dedi.
- Səkinə icazə istəyir. Rayonda yaşayan anasının vəziyyəti elə də yaxşı deyil. Mənə dedi ki, bəs, sən Əli müəllimə de. İcazə verərsə gedərəm.
- Hə, belə de.. Allah şəfa versin. Eybi yoxdur, deynən ki, iki günlük olar. – Əli müəllim fikirləşib dedi.
- Oldu müəllim. Çox sağ olun. Sözümü yerə salmadınız. – Əli müəllimə təşəkkür etdi.
- Səndə sağ ol, Həsənov. Gedə bilərsən. – Əli müəllim dedi.
- Sağ olun. – deyib, otaqdan çıxdım.

İndi isə, Səkinə ilə görüşüb, icazə ala bildiyini deməli idi. Geniş koridorla irəliləyib, gözü ilə Səkinəni axtarmağa başladı. Bu vaxt, Koridorun sonunda, pəncərədə dayanan Səkinəni gördü. Görünüşündən Fikirli olduğu bəlli idi. Qəlbində əzab var idi, onun. Bu əzabı özü çəkirdi Səkinə. Qız birdən Ruhini gördü. Tez Ruhinin üstünə yüyürdü.

- Dedin Ruhin? – Səkinə dilləndi.
- Hə. Dedim. Sabah gedə bilərsən. – dedim
- Çox sağ ol, Allah razı olsun. – qızın gözlərinə işıq gəldi.
- Bir şey deyil. – Ruhin dedi.

Ruhin qızdan ayrılıb, öz otaqlarına getdi. Bu gün alınsa, Leylanın könlünü almaq istəyirdi. Bir sürpriz bəs edirdi. Məsələn, şokolad. Və ya gül buketi. Hə nə isə... Bunlar sonranın işi idi. Asta addımlarla, ikinci mərtəbədən uzaqlaşdı.

***

- Mənim qızıma nə olub belə? – qızının saçlarını sığallayan ata, qayğıkeşliklə dilləndi.
- Heç nə. – Leyla dilləndi.
- Qalx, qalx gedək yemək yeyək. – atası təkid etdi.
- Ac deyiləm. – dedi.
- Necə yəni, ac deyiləm. Səhərdən bəri heç nə yeməmisən.
- Yemirəm, yemirəm. Yatmaq istəyirəm. – Leyla səsini yüksəltdi.
- Yaxşı. Məndə sənə görə deyirəm. – atası qızının alnından Öpərək, otağı tərk etdi.
- nə vecinə eee.. – Leyla ürəyində dedi.

Leyla atası ilə fəxr etmirdi. Anası on il əvvəl vəfat etmişdi. Həm də atasının ucbatından. Yazıq qadın xəstə idi. Sağalması üçün, yüksək məbləğdə pul lazım idi. Atasında bu pulun on qatı var idi. Amma əməliyyat pulunu vermədi. O, Vaxt nazir müavini idi, atası. Guya haram pul qazanmayıb, heç vaxt əli kirli pula dəyməyib. Hə Həsən Alxasov, O vaxt o, pulu versə idin, indi anam sağ idi. Öləndə, son nəfəsində, Leyla deyərək köçdü, bu həyatdan. Fikirlərdən ayılıb, Telefonuna baxdı. Ruhindən mesaj gəlmişdi.

- Sabah saat onda, Filarmoniya bağında ol. 19:23

Çox götür-qoy edib, yazmağı qərara aldı.

– Yaxşı. – deyə yazdı. 19:30

Ayağa qalxıb, mətbəxə endi. Soyuducudan soyuq yeməklər çıxardı. Süfrəyə düzüb əyləşdi. Ac olduğu üçün, başı dəhşətli dərəcədə ağrıyırdı. Leyla gözəl qız idi. Çox bəzənməyi, bahalı paltar geyinməyi sevmirdi. Həmişə sadə geyinərdi. Uzun kirpikləri, incə dodaqları, balaca burnu onu gözəl göstərirdi. Yeməyini bitirib, ayağa qalxdı. Öz otağına çıxıb, yatağına uzandı. Yorulmuşdu. Yatmaq, dincini almaq istəyirdi. Ruhinlə olacaq görüşü xatırlayırdı. Ruhin çox sadə biri idi. Onu səmimi qəlbdən sevirdi, Leyla. Qızlar qrupda ona paxıllıq edirdilər. Bu təbii idi, Leyla gözəl idi. Gözələ paxıllıq edərlər. Bu Leylaya xoş gəlirdi. Bu yaxınlarda olacaq imtahanlar yadına düşdü. Qızların içində ən fəalı da o idi. O, biri qızlar, oxumağa yox, özlərini göstərməyə gəlirdilər. Bunları unudub, gözlərini yumdu. Yuxu....

# II

– Kərimov, təcili otağıma gəl. – selektorun düyməsini sıxıb dedi.
– Oldu. – Gənc kapitanın səsi eşidildi.

Bir neçə dəqiqə keçməmiş, orta boylu, enli kürəkli kapitan otağa daxil oldu.

– Eşidirəm, Rəis. – kapitan farağat verib dayandı.
– Qulaq as, Kərimov. Sənə tapşırığım var.
– Bəli. Rəis.

- Həsən Alxasov. Keçmiş nazir müavini. Hal hazırda vəzifədə deyil. Onun haqqında təcili məlumat topla. Ehtiyatlı olun, bir az. Qoca qurddur o. Sabaha qədər xəbər et mənə.
- Oldu, rəis. – Kapitan otağı tərk etdi.

Beşinci polis bölməsinin, iki il idi ki, rəisi idi. Heç kəs deyə bilməz ki, Amil Səlimov haqqı nahağın ayağına verən biridir. Heç zaman haram çörək yeməyib. Və nə qədər ki, yaşayır, yeməyəcək. Qırx dörd yaşlı mayor, Amil Səlimov, bura təyin olmazdan əvvəl, A. Rayonunda rəis müavini idi. A. Rayonun rəisi, çox haram yeyən adam idi. Günahı oldu, olmadı, kim xoşuna gəlmədi, tutub atardı içəri. Səlimov isə, onun tabeliyi altında işləmək niyyətində deyildi. Neçə dəfə Yuxarı ərizə yazmış, yerinin dəyişilməsi üçün müraciət etmişdi. Müxtəlif cavablar gəlirdi. Sən hələ ora lazımsan, az qalıb, gedəcəksən oradan. Səlimov bu ərizələrdən bezdi, və daha yazmadı. Ancaq, rayon camaatı rəisin əlindən qan ağlayırdı. Bir müddət də belə keçdi. Amil Səlimov günü günə, həftəni həftəyə satırdı. Bir gün yoxlama zamanı, Rayon rəisinin külli miqdarda pul mənimsəməsi ortaya çıxdı. Rəis işdən çıxarıldı, və həbs olundu. Amil Səlimov isə, müvəqqəti olaraq, Rəis əvəzi oldu. İki ay keçdikdən sonra, onu dördüncü bölməyə rəis təyin etdilər. Bu hadisələrdən üç ilə yaxın vaxt keçsə də, Səlimov bunları xatırlayanda gülümsəyir, və yadına salır ki, halal çörək hamısından yaxşıdır. Elə götürək bu rəisi. Rəis, indi halal

çörək yesəydin, vəzifəndə əlində idi, pulunda, maaşında. Haram yolla millətdən qopardığın pulu yeyə bilmədin. Rəis həbs olunan vaxt, Səlimovda orada idi. Hüquq mühafizə orqanları onu apararkən, rəis arxaya qanrılıb mənə kinli nəzərlərlə baxdı. O, özlüyündə elə zənn etdi ki, bu olanları mən etmişəm. Səlimov gülümsədi. Cip telefonu səsləndi.

- Alo.
- Hər vaxtın xeyir, Amil. – Yaşlı qadın səsi eşidildi.
- Hər vaxtın xeyir. Ana, sənsən? – dedi.
- Mənəm bala. Necəsən? – anası hal-əhval tutdu.
- Çox sağ ol ana, yaxşıyam.
- Emil nə edir, nənəsi qurban ona. – anası qayğıkeşliklə dilləndi.
- Yaxşıdır ana. Siz necəsiniz?
- Bizdə yaxşıyıq. Xədicə Salam söyləyir. – anası dedi
- Məndən ona salam de.
- Yaxşı bala. Özündən muğayat ol.
- Yaxşı ana, sağ ol. – deyib, telefonu qapadı.

Ayağa qalxdı. Paltosunu geyinib, şöbəni tərk etdi. Bu gün xeyli yorulmuşdu. İki uşaq oğurlanmışdı. Anası, atası buranı sökürdü az qala. Atadır, anadır, qınamaq olmaz. Övladdır, canın yarısıdır. Qınamaq da olmaz. De, yeganə oğlu Emil, onu elə çox istəyirdi ki, tək övlad idi. Maşınına əyləşib, bir-baş evinə sürdü. Yolda tək-tük maşın olardı, olmazdı. Bu vaxtlar, bu yol belə seyrək olardı. Sürətini artırıb, tezliklə öz məhəlləsinə çatdı.

***

Filarmoniya bağı necə də gözəl idi. İri fəvvarənin qarşısında dayanıb, lal suya baxırdı. Suyun üstündə öz təsvirini görüb gülümsədi. Ruhinin uzaqdan gəldiyini görüb, skamyada əyləşdi. Leyla görüşə tez gəlmişdi. Ruhin Leylanın yanına çatıb, skamyada əyləşdi. Görünür, Leyla danışmayacaq. Ruhin düşündü. Söhbətə özü başlamaq istədi. Həm, günah özündə idi. Nahaqdan qızın qəlbini qırmışdı.

Danışmaq istəmirsən? – Ruhin dedi. – Yaxşı. Onda mən danışıram. – Ruhin Leylanın hamar əllərinə toxundu. Qız bu təmasdan diksinib, əlini çəkmək istədi. Amma, nədənsə çəkmədi.

– Bilirsən, bilirəm, qəlbini qırmışam. Nə edək hər insan səhv edir. Əsas odur ki, səhvini anlamaq, onu düzəltmək vacibdir. – Ruhin, fontan vuran fəvvarəyə baxaraq danışırdı.

Leyla danışmırdı. Ruhin əlini, qızın əlindən çəkmişdi.

Leyla qıpqırmızı idi. Utancaq qız idi, bu Ruhinin xoşuna gəlirdi. Bu qızarma, qızlara xas idi. Ruhin Leylanın dinmədiyini görüb, sözünə davam etdi:

– Səni tanıdığım gündən, həyatım büsbütün dəyişib. Mən heç zaman sənin xətrinə dəyəcək bir söz demək istəməmişəm. Sənin dırnağına bir daş dəyməsini istəməmişəm. – udqunub, davam etdi. – Gəl

aramızda olan bu küskünlüyü unudaq. Öz həyatımıza qaldığımız yerdən, elə burdan davam edək!

Leyla danışmaq istəyir, bunu büruzə verməməyə çalışırdı. Ruhin, qızın danışacağını gözləyirdi. Leyla, saçlarını arxaya atıb, danışmağa başladı:

– Ruhin, mən heç səndən inciməmişəm. Bu olanları isə, basa düşə bilmirəm. Aramızda olan kiçik bir söhbət, gör nələrə səbəb oldu.

Ruhin gülümsəyib, Leylanı qucaqladı. Ruhin onun üzünü görməsə də, qızardığını bilirdi. Leylanın isti əllərini ovcuna aldı. Bu hamar, yumşaq əl, ona necə də doğma, əziz idi. Ovcunda tutduğu əli, sığallayıb öpdü. Bu Ruhinin, Leylaya qarşı ilk hərəkəti idi. Onlar sevgili olduğu müddətdə, Ruhin, bir dəfə də olsun, Leylanı öpməmişdi. Ayağa qalxıb, iri fəvvarənin yanına irəlilədilər. Leylanı özünə sıxıb, alnından öpdü. Onun sevimli Leylası, artıq yanında idi. Bir yerdə idilər! Üzünü Leylaya tutub:

– Leyla, mən səni sevirəm! – pıçıldadı.

Leyla, bu etirafı cavabsız qoymayıb:

– Məndə! – Ruhinə cavab verdi.

Onlar necədə mehriban idilər. Ruhin Leylanın əlindən tutmuş, Leyla da başını Ruhinin çiyininə qoymuşdu. Asta addımlarla, Filarmoniya bağını tərk etdilər. Ruhin piyada getmək istəməyib:

- Leyla, bəlkə taksi ilə gedək?
- Gəzirik də. Təmiz hava, Təmiz sevgi. – Leyla güldü.

Ruhin də qıza qarşılıq verib güldü. Leyla elə şirin gülürdü ki, adam özündən gedirdi. Bu dəqiqə, Ruhinin gözündə Leyladan başqa gözəli yox idi. Hətta, Universitetdə oxuyan qızlar belə ona çata bilməzdi. Ruhin belə düşünürdü.

- Deyirəm bəlkə, Sabah Restorana gedək? – Ruhin dedi.
- Sabah, qızlar yığılmaq istəyir.
- Nə olsun? Biz özümüz gedək. – Ruhin təkid etdi.
- Nə deyirəm, bəs dərs? – Leyla sual verdi
- Dərsdən sonra, saat, altıda, yeddidə gedərik. – Ruhin gülümsəyib dedi.
- Yaxşı, Ruhin sən niyə belə şirinsən? – Leyla gülməyə başladı. Uğunub getmişdi, dəli qız.
- Şirinəm? – Ruhin gülüb, özü ilə lovğalandı.
- Hə. Yeyərəm e, səni. – Leyla Ruhini itələdi.
- Yaxşı. Ağır ol, bir az . – Ruhin ciddiləşdi.
- Tamam. – Leyla razılaşdı.

Leylanın yaşadığı məhəlləyə gəlib çatdılar.

Ayrılmaq vaxtı idi. Leylanın əllərini buraxdı.

- Sabah görüşəcəyik də, hə?
- Hə, bəs bayaqdan nə deyirəm? – Ruhin güldü.
- Nə bilim, dəqiqliyi sevirəm. – Leyla gülümsədi.
- Yaxşı, yaxşı. Hava soyuqdur, get evə.

– Hələlik. Gecən xeyrə. – Leyla getməyə hazırlaşdı.
– Xeyrə qarşı. Səni sevirəm. – Ruhin dedi.
– Məndə, məndə səni. – Leyla pıçıldadı.

Ruhin dayanıb, Leylanın evə getməsini gözlədi. Leyla qüsursuz bədən quruluşuna sahib idi. O, çox gözəl idi. Qız evə daxil oldu. Ruhin yeyin addımlarla, məhəllədən uzaqlaşdı.

***

Balkonda oturub, siqaret tüstülədirdi. Saatdan xəbəri yox idi. Ayağa qalxıb televizoru qoşdu. Kanalları bir-bir gəzdirməyə başladı. İkinci kanalda saxladı. Burada konsert idi. Cavan oğlan musiqi ifa edirdi. Səsi yox, bir şeyi yox. Belə ifaçı olar? Necə gəldi oxuyurdu. Aparıcı isə, alqışları görmürəm, alqışları görmürəm deyə bağırırdı. Studiyada əyləşən tamaşaçılar isə, əllərini havada qaldırıb, əl çalırdılar. Ayağa duran kim, fit çalan kim. Belə kanal olar? Özlüyündə fikirləşdi. Bu lazımsız musiqini dayandırmaq lazım idi. Kanalı dəyişdi. Bu kanalda kino gedirdi. Bu kinonun adını eşitmişdi. Hətta serjant Bəkirov da buna baxırdı. Bunu serjant danışmışdı, şöbə işçilərinə. Baş qəhrəman, özünü nə günlərə salırdı.

Film çox süni çəkilmişdi. Oyunçuların oynaması, danışığı, hamısı süni idi. Günah özündə idi, bu kanala niyə çevirdi ki? Hə, yaxşı bir şey tapsın. De, budur yaxşı. Pultu götürüb, televizoru söndürdü. Vanna otağına keçib,

üzünə su vurdu. Yuxusuz idi. Yan otaqdan telefonunun səsini eşitdi. İti addımlarla zala qayıdıb, telefonu açdı.

- Rəis, hadisə baş verib! – Növbətçi Alxasovun səsi eşidildi.
- Nə olub, Alxasov!? – yüksək səslə soruşdu.
- Səfərzadə küçəsində bıçaqlanma olub. Bıçaqlanan şəxs isə, Ruhin Rəhimov olub.
- Aha. Yaralı ölüb?
- Xeyr. Xəstəxanadadır. Vəziyyəti orta-ağırdır
- Yaxşı. Mən indi şöbəyə gəlirəm. – deyib, telefonu qapadı.

Yan otağa keçib, paltarını dəyişdi. Avtomobilin açarını götürüb, həyətə düşdü. Yoldaşı Nazlının arxadan səsi eşidildi, Səlimov isə, bu səsi eşitmədi. Avtomobilə əyləşib şöbəyə yola düşdü. İş telefonu yenidən zəng çalırdı.

- Axşamınız xeyir, Rəis şöbəyə gəlirsiz?
- Hə, Kazımov. Nə olub? – soruşdu.
- Bıçaqlanan Ruhin Xəlilovun atası sizlə görüşmək istəyir. Deyirik ki, burda yoxsunuz, inanmır.
- Gəlirəm, Kazımov, gəlirəm. Kapitan Kərimova de ki, təcili əməliyyat qrupu yaradılsın.
- Oldu, Rəis. – Kazımov telefonu qapadı.

Amil Səlimov telefonu oturacağa tullayıb, yola yönəldi.

Şöbədə səs-küy var idi. Rəis otağına keçib, əyləşdi. Kapitan Kərimov otağa daxil olub:

– Rəis. Əmrinizlə əməliyyat qrupu yaradılıb.
– Təcili Ruhin Xəlilovun kim tərəfindən bıçaqlanması araşdırılsın. Lap kəndlərə də gedin. Tapın onu.
– Oldu, rəis. – kapitan cavab verdi.
– Dayan. Müstəntiq hələ getməyib, xəstəxanaya?
– Xeyr. – kapitan dedi.
– Saat birə işləyib. Evdədir? – rəis əsəbi danışırdı.
– Bəli. Burda deyil. – kapitan dedi.
– Kazımova de, zəng vursun. Gəlsin bölməyə.
– Oldu. – kapitan otağı tərk etdi.

Belə də iş olar!? Bu gedib evdə oturub. Millət şöbədə oturub, bu evdə. Qapıdan səslər gəlirdi.

– Əşi, çəkilin. Rəisinizlə görüşəcəyəm. – orta yaşlı kişi qışqırırdı.

Ayağa qalxıb, qapını açdı.

– Buraxın içəri. – Rəis qışqırdı.

Ruhinin atası bu qoca kişi idi. Oğlunun bıçaqlandığını eşidib, özünü bura güclə yetirmişdi. Rəisin otağına keçib əyləşdi.

– Oğul. Qurban olum, tap onu. Ver mənə o alacağı.
– Ağsaqqal, sakit ol. Narahat olma, əməliyyat qrupu yaradılıb. Tezliklə günahkar tapılacaq.
– Əşi, mənə qrup lazım deyil. Mənə o alçaq lazımdır.
– Ağsaqqal dedim ki, qatil tapılacaq. Xahiş edirəm, çıxın çölə. – Rəis səsini qaldırıb, qapını göstərdi.

Kişi, heç nə demədən ayağa qalxıb, otağı tərk etdi. Bunlar elə bilir ki, rəis olmaq, polis olmaq asandır. Hərə bir ağızdan belə çığırsa, kamera dolar. Başa düşmək lazımdır, anlamaq lazımdır. Otağın qapısı döyüldü. Gəl. – dedi. Müstəntiq otağa daxil oldu.

– Gəl çıx da. Harada idin, Vəliyev!? – Rəis səsini qaldırdı.
– Rəis. Evdə idim. Vacib işim var idi. – müstəntiq mızıldandı.
– Burdan başqa, nə işin ola bilər! Nə isə, xəstəxanaya getməliyik.
– Oldu. – müstəntiq cavab verdi.

Rəis müstəntiqlə bərabər otağı tərk edib, xəstəxanaya yollandı. Müstəntiq maşını yüksək sürətlə sürməyə çalışır, xəstəxanaya tez çatmaq istəyirdi.

– Sən hadisəni bilirsən, Vəliyev? – müstəntiq soruşdu.
– Bəli. Ruhin adlı gənc bıçaqlanıb. Hadisə Səfərzadə küçəsində baş verib. Yaralı xeyli qan itirib.
– Hə. Biz çox çətin düyünə düşmüşük.

Xəstəxanaya çatıb, Ruhinin yatdığı palataya qalxdılar. Ruhin palatada uzanmışdı. Yanında sarışın bir qız var idi. Rəis Ruhinə yaxınlaşıb salamlaşdı:

– Salam, Ruhin. Necəsən? Yaran ağrıyır? – rəis soruşdu.
– Sağ olun, normalam. Bir az ağrıyır. – Ruhin sızıldayaraq, cavab verdi.

– Sənə bir-iki sual verəcək, müstəntiq, Vəliyev.

Vəliyev yaxına gəldi. Ruhinlə salamlaşdı.

– Salam, Ruhin. Allah şəfa versin. Müstəntiq, Vəliyev.
– Sağ olun. – Ruhin dedi.
– İzahat verməyə hazırsan? – müstəntiq sual verdi.
– Bəli.
– Onda başlayaq.

Müstəntiq dəftərini çıxarıb, Ruhinlə üz-üzə əyləşdi.

– Ruhin, Səfərzadə küçəsinə nə məqsədlə getmişdin?

Ruhinin yanındakı qız, bir qıraqda dayanıb, sorğuya qulaq asırdı.

Ruhin dedi: – Mən evə gedirdim. Nisbətən qaranlıq küçədə bir nəfər maskalı şəxs mənə doğru yaxınlaşıb, əlində tutduğu qatlanan bıçaqla məni vurdu. Elə həmin dəqiqə də, oradan uzaqlaşdı. Dediyim kimi, küçə sakitlik olduğu üçün, mənim səsimi eşidən olmadı.

– Müqavimət göstərə bildinizmi? – müstəntiq dedi.
– Xeyr. Gücüm çatmadı. Bədənli biri idi.
– Yaxşı. Bəs, saat neçə olardı, siz orada olanda.
– Təxminən, 10 ya 11 belə olardı. – Ruhin fikirləşib dedi.
– Əhatənizdə, sizinlə düşmənçilik edən biri varmı?
– Xeyr. Çox da yaxınım yoxdur. – Ruhin düşünmədən dedi.
– Bəs, şübhələndiyiniz biri? – müstəntiq dedi.
– Yoxdur. Yəni, çox adamla ünsiyyətdə olmuram.

– Bu qız nəyinizdir? – müstəntiq Leylanı göstərdi.
– Tanışım. – Ruhin duruxdu.

Xahiş edirəm, doğru deyin. Biz qatilin kimliyini müəyyən etmək üçün sizdən doğru cavablar almalıyıq.

– Mən doğru deyirəm. Yəni.. – Ruhin sözünün ardını demədi.
– Sevgilinizdir? – Rəis soruşdu.
– Bəli. – Ruhin başını aşağı saldı.

Bu vaxt, Leyla utandığından qıpqırmızı qızarmışdı.

– Çoxdandır ki, münasibətiniz var? – müstəntiq dəftərdə qeyd edərək, sual verdi.
– Dörd ya beş ay olar. – Ruhin dedi.
– Sizin sevgili olduğunuzu, özünüzdən başqa, kimsə bilir?
– Xeyr, bir Dostum Fərid bilir. – Ruhin cavab verdi.
– Sizcə, Fərid belə bir şey edər? – müstəntiq.
– Xeyr. Fərid etməz. – Ruhin dedi.
– Nəyə görə əminsiniz. İndi ki, zamanda qardaş qardaşı öldürür. Heç kimə güvənmək lazım deyil.
– Fərid mənə qardaşdan da irəli olub. Olacaqda.
– Yaxşı. Sizi çox yormayaq. Yastığınız yüngül olsun.

Rəislə müstəntiq Ruhinlə görüşüb, xəstəxananı tərk etdilər.

– Evə gedəcəksiniz? – Vəliyev soruşdu.
– Bilmirəm. Yəqin ki, hə. – Rəis dilləndi.
– Onda sizi şöbəyə aparım. Maşınınız şöbədə qalıb.

Rəis cavab vermədi. Vəliyev maşını birbaş şöbəyə sürdü. Şöbənin həyətində bir-iki maşından başqa, heç kim yox idi. Rəis şöbəyə daxil olub, tez də çıxdı. Evə getməli idi.

# III

– Heç bir iz qoymadın?
– Xeyr. İşi təmiz görmüşəm.
– Çox gözəl. Bilet hazırdır. Uşaqlar səni yola salacaq.
– Çox sağ olun, şef.
– Sağ ol. – deyib, telefonu söndürdü.

Planı uğurla həyata keçirmişdi. Bütün bu işlərin başında dayanan, ən böyük şef Həsən Alxasov idi. Onun əmri ilə, Leylanın sevgilisi Ruhin bıçaqlanmışdı. Alxasovun niyyəti nə idi Bilmirdi. O, sadəcə olaraq şefindən Ruhini bıçaqlamaq əmri almışdı. Uşaqlar isə işi təmiz görmüşdü. Şefi zəng vururdu.

– Buyur şef.
– İşi həll elədiniz?
– Bəli, bəli.
– Gözəl. Kim həll etdi?
– Çuk Rasim.
– Hə, onun işini həll et ha..
– Oldu şef. – telefonu qapadı.

Alxasov özü maraqlanırdı, hər bir işlə. Onun köməkçisi özü idi. Ayağa qalxıb, köhnə fabriki tərk etdi. Bu fabrikdə çoxları ölmüşdü. Bunları edən isə, özü idi. Öz

“Volqasına” minib, fabrikdən uzaqlaşdı. Arif, bu işlərin axırından bir az qorxurdu. Əslində, neçə-neçə qətllər törətmişdi. Bunlara görə narahat olmurdu. Ona görə narahat olurdu ki, ailəsi başsız qalar. Bu işlərdə axır görünmürdü. Sürəti artırıb, öz evlərinə çatdı.

***

– Kərimov. Həsən Alxasov haqqında nə məlumatlar var? Vaxt olmadı, səndən soruşa bilmədim heç.
– Rəis. Alxasov, on beş il əvvəl nazir müavini təyin olunub. Vəzifədə yaxşı imiş. Beş il əvvəl “DTX” əməliyyat zamanı onu həbs edib. Daha sonra, onun günahsız olduğu bilinib. Evə buraxılıb. Həbsdən çıxdığı gün, vəzifəsindən azad olunub. Hal hazırda, kiçik bizneslə məşğuldur. Tam olaraq bilinmir, biznesi nədən ibarətdir. Leyla adında bir qızı var. Evi də hal hazırda nəzarətimiz altındadır.
– Çox sağ ol, Kərimov. Əmrimi gözləyin. O, qoca qurd işinin ustasıdır. Amma, məni uşaq zənn etməsin. Axır əvvəl caynağıma keçəcək. Onda görüm, necə çıxır!
– Oldu, rəis. – Kapitan cavab verdi.
– Gedə bilərsən. – Rəis cavab verdi.

Burada oturmağın mənası yox idi. İş görmək lazım idi. Selektoru sıxıb:

– Kərimov, uşaqları yığ. Müşavirə edirəm.
– Oldu. – kapitanın səsi gəldi.

Ayağa qalxıb, müşavirə otağına getdi. Hamı burda idi. Amil Səlimov hamını salamlayıb, yerində əyləşdi.

– Kərimov. Əməliyyat qrupu nə yerdədir?
– Axtarışlar davam edir. Yenilik yoxdur.
– Yaxşı. Əyləş.

Oturanları bir-bir süzdü. Hamı bir nəfər kimi, ona baxırdı

– Deməli belə. Ruhin Xəlilovun işi davam edir. Ümid edirəm ki, qatil tezliklə tapılacaq. Gələk o, biri məsələyə. Qarşımızda böyük bir banda var. Mən özümü təmkinli aparıram. Köhnə qurdlardan Həsən Alxasovun adını yəqin ki, eşitmisiniz. Bu qoca qurddan çoxdandır ki, şübhələnirəm. Kərimovun araşdırması hələ ki, bir nəticə verməyib. Amma, məlumatımız var. Bizim bu qoca qurd, altdan-altdan kiçik bizneslə məşğul olur. Guya biz bilmirik nə edir bu! Mən hələ ki, ona nəzarət edirəm. Ən kiçik bir səhvini tutsam, başına nə gələcəyini bir Allahı biləcək, birdə özü!

Qrafindən su süzüb içdi. Boğazını ovuşdurub, danışmağına davam etdi:

– Hər an, hər şey ola bilər.
– Fikrətov! – rəis leytenanta səsləndi.
– Bəli, rəis. – Fikrətov ayağa qalxdı.
– Təcili xüsusi dəstəni hazır vəziyyətə sal.
– Oldu, rəis.
– Biz hər şeyə hazır olmalıyıq. Başa düşdünüz?

– Hamı başını yellədi.
– Kərimov! Səndə, təcili o qaçağı tap!
– Baş üstə, rəis.
– Gedə bilərsiniz!

Rəis ayağa qalxıb, otağına getdi. Bu vaxt, Bəkirov ona yaxınlaşdı:

– Rəis, bıçaqlanma hadisəsi haqqında təzə məlumatlar var. – Bəkirov rəisinə məruzə etdi.
– Otağıma gəl! – rəis otağına keçdi. Bəkirov da onun ardınca otağa daxil oldu.
– Danış görək. – Rəis dedi.
– Bu gün Moskvaya gizli bilet alınıb. Gizli deyəndə ki, Alxasovun adamları tərəfindən. Reys sabahadır. Yüz faiz ki, qatil qaçır.
– Belə de.. – selektoru sıxıb, – Kərimov! Təcili otağıma!

Az keçməmiş, kapitan otağa daxil oldu.

– Buyur, rəis.
– Qatil tapılmaq üzrədir.
– Necə yəni? – kapitan təəccübləndi.
– Bəkirov deyir ki, sabaha gizli bilet alınıb. Moskvaya, sabaha. Alxasovun adamları olma ehtimalı var.
– Rəis, sabaha qədər vaxtımız var? Elə indicə, əməliyyat qrupu ilə Alxasovun evinə basqın bilərik. İş üstə yaxalayarıq.
– Yox. Basqın lazım deyil. Bu gün heç nə etmirik!

– Necə? Qatil qaçır, rəis!
– Sabah onu hava limanında həbs edəcəyik. Həm onu, həmdə başçısı Alxasovu!
– Rəis, gecikə bilərik!
– Yox! Bu gün hücum olmayacaq!
– Oldu, rəis.
– Gedə bilərsən.

Kapitan otağı tərk etdi. Rəis Bəkirova da getmək əmrini verdi. Qutudan bir siqaret çıxarıb, dodaqlarına qoydu. Alışqanla od vurub yandırdı. Tüstülər havada uçurdu..

***

Sən yanımdasan deyə, bütün ağrılarımı unutmuşam. – Ruhin sevgilisinin əlindən bərk-bərk tutaraq danışırdı. İki gün idi ki, şəhərə həsrət idi. Bu xəstəxanadan xoşagəlməz qoxu gəlirdi. Doğranmış meyvədən bir parça görüb, ağzına atdı. Atası bu gəcə yanında qalmış, Ruhin səhər tezdən ona evə getməsini demişdi. Yazıq kişi, iki günün içində arıqlayıb, çöpə dönmüşdü. Leyla axşama kimi onun yanında oturur, gecədən keçmiş, Ruhinin israrı ilə evə gedirdi. Leylanın ailəsində nə isə problem var idi. Qız çox qəmgin, kədərli görünürdü. Bunu Ruhinlə də əlaqələndirmək olardı.

– Ruhin, həkimlər bayaq dedi ki, iki-üç günə səni evə buraxmaq olar. – Leyla sevinclə dedi.
– Hə.

– Nə olub? Başa düşürəm, yaralısan. Ancaq, niyə özünü belə kədərli göstərirsən.
– Yox, heç nə olmayıb. Səndə qalx, get evə.
– Oturmuşam da. – Leyla getmək istəmədi.
– Qalx, qalx. Get evə. Yemək də yeməmisən.
– Yaxşı. Ancaq bax ha, ürəyim burdadır.
– Yaxşı, get.. – Ruhin sağollaşdı.

Leyla otağın qapısından çıxıb, evlərinə getdi. Ruhin yarısına görə narahat deyildi. Onu bu hala kim salmışdı?! Bunu fikirləşirdi. Onsuz da, hüquq mühafizə orqanları bu işi araşdırırdı. Qatil tezliklə tapılacaqdı. Yerində dikəlib, yanındakı qrafindən su süzdü. Suyunu içib, yerinə uzandı. Yatmağa ehtiyacı var idi. Gözlərini yumdu...

***

Rəis otağında oturub Kərimovu gözləyirdi. Saat 9 idi. Saat onda qatil Moskvaya yola düşürdü. Hava limanındaca onu yaxalayıb tərksilah etmək istəyirdi. Kapitan Kərimov otağa daxil oldu.

– Rəis. Biz sizin əmrinizi gözləyirik.
– On dəqiqə sonra mikroavtobusla hava limanına yola düşürsünüz. Çalışın özünüzü şübhəli aparmayın. Elə reysə minməyə hazır olanda, onu yaxalayın. Çalışın səhv etməyin.
– Oldu rəis. – kapitan Cavab verdi.
– Cinayət axtarış şöbəsinin rəisi Vəzirov da sizinlə olacaq.

– Oldu.
– Gedə bilərsən.

Kapitan çıxan kimi, Rəis telefonu götürüb yuxarı zəng vurdu.

– Cənab general. Uşaqlar hazırdır. Hava limanına yola çıxırlar.
– Səlimov. Səni ora təyin etməkdə məqsədim başımızı uca etmək üçün, əlindən gələni etməkdir. Sənə güvənirəm. Ruhin adlı gənc oğlana da yardım göstərin.
– Oldu, cənab general. – telefonu qapadıb, otağını tərk etdi. Çıxışa gedəndə, serjant Yusifov onu saxladı.
– Rəis. " Əlişin kafesində" dava düşüb. O, vaxt narkotik üstündə tutduğumuz, "Xallı Zakir" kafedə oturan iki kişini döyüb.
– Nə?! Gedin O, şərəfsizi tutun, gətirin basın içəri. Dərəbəylikdir!? Təcili özdə!
– Oldu, rəis.

İçindən bir səs əməliyyatın uğursuz olacağını deyirdi. Niyə belə düşünürdü, özü də anlamırdı. Polkovnik Ayət Hüseynova yaxınlaşıb, göstərirlər verməyə başladı.

***

Bakı hava limanı, həmənki kimi, gur insanlarla dolu idi. Kimisi qarşıdan gələn bayramı Bakıda, öz ailəsi ilə keçirməyə gəlirdi, kimisi Moskvaya iş dalınca gedir,

kimisi də, baş götürüb bu şəhərdən gedirdi. Kərimov bura bunların heç biri üçün gəlməmişdi. Yanında dayanan cinayət axtarış şöbəsinin rəisi Vəzirov, Kapitanın nə edəcəyini izləyirdi. İş onun əlində deyildi. İşi aparan kapitan idi. Reysin qalxmasına 20 dəqiqə qalmışdı. Kərimov anidən, öz şikarını itirdi. Bütün heyəti hava limanına, axtarışa cəlb etdi. – lənətə gələsən! – əsəbindən dodaqlarını çeynəyirdi. Şöbənin işçiləri adı bir cinayətkarı gözdən itirdilər. Yox. O, adı cinayətkar deyildi! Tədbirli imiş, yüz faiz ki, gözdən qaçıb reysə minib. Reys isə, on dəqiqə idi ki, havaya qalxmışdı. Bir saata yaxın axtarışlara baxmayaraq, cinayətkar tapılmadı ki, tapılmadı. Kapitan əməliyyat qrupu ilə kor peşman hava limanını tərk etdi. Telefonla rəisi yığıb:

- Rəis. Bağışlayın, əməliyyat uğursuz oldu.
- Nə?! Elədə bilirdim, elə də bilirdim.
- Bağışlayın rəis.
- Bu səhvi təcili düzəltmək lazımdır. O, qaçıb. Sizin gözümüzdən yayınaraq qaçıb.
- Nə edək rəis?
- Heç nə bölməyə gəlin!

Plan uğursuz alınmışdı. Rəis yanılmamışdı. Bu saat ona bıçaq vursaydın, qan çıxmazdı. Cib telefonu zəng çaldı.

- Alo, rəis. Ruhini palatada öldürüblər.

İlahi, bu nə demək idi?! Bunlar nə etmək istəyirdi.

- Nə danışırsan, Kərimov!

– Bəli. İynə burub öldürüblər!
– Mən ora gəlirəm.
– Rəis, heç kəsi buraxmırlar.
– Qələt edirlər!

Tələsik şöbədən çıxıb, çöldə saxladığı maşına mindi. Sürəti artırıb xəstəxanaya sürdü.

***

Balamı verin, balamı verin! – Ruhinin qoca atası fəryad edirdi. Həkimlər onu birtəhər sakitləşdirmişdi. Oğlunun başına gələnlərdən sonra, yazıq kişi qupquru idi. Rəis gəlib, ekspertlərin yanında dayandı. Onlar işlərini bitirib, uzaqlaşdılar. Ruhinin cəsədini aparmaq üçün maşın gəlmişdi. Bir azdan cəsəd maşına qoyularaq, Ruhinin doğma kəndinə yola düşəcəkdi. Kənarda dayanan bir qız, ağlamaqdan pis vəziyyətdə idi. Gözləri şişmişdi.

Hərdən qışqıraraq, – Ruhin, məni niyə tək qoydun?! – deyə bağırırdı. Bu keçən dəfə gördükləri Leyla idi. Amma, həmin Leyla deyildi, onun da halı yaxşı deyildi. Rəis Kapitana yaxınlaşıb:

– Çoxdan burdasız?
– Yox, Rəis. Xəbəri eşidən kimi gəlmişik.
– Hm. Yazıq, gənc idi... Kimlərin bu zavallı uşaqla işi olardı ki?!
– Qatil tapılacaq, buna əmin olaq, rəis.
– Əminəm. Əminəm ki, tapılacaq.

Burada dayanmaq olmazdı. Rəis, Zahid kişiyə başsağlığı verib, avtomobilə əyləşib bölməyə sürdü. Bölməyə çatıb otağına keçdi. Yerində əyləşdi. Siyirməni çəkib, orada olan, makarov silahını götürdü. Telefonuna zəng gəldiyini görüb, açdı.

– Cənab general, buyurun.
– Bu işlərin başında, Alxasov dayanır. Onu həbs edin!
– Mənə vaxt verin, Cənab general!
– İki günə qədər O, həbs olunmalıdır.
– Oldu, Cənab general.

Telefonu qapadıb, stola atdı. Bir siqaret yandırıb, dərin fikrə getdi. Bu fikirlər, olub keçən hadisələrlə bağlı idi. Saata baxıb, ayağa qalxdı. Evə getməmişdi. Burdan çıxıb, birbaş evə getdi. Oğlu üstünə atılıb:

– Atam gəldi, atam gəldi. – deyə bağırdı.
– Atasının ürəyi. – oğlunun başını sığallayıb, otağa keçdi. Yoldaşı bir çay süzüb, onun qarşısına qoydu.
– Çox sağ ol. – yoldaşına dedi.
– Yaman fikirlisən.
– Hə. İşlə bağlıdır.
– Çox yorulursan. Vaxt elə, dincəl
– İş orasıdır ki, vaxt yoxdur. – gülümsədi.

Çox danışmaq istəmirdi. Çayını içib, yatağına yiyələndi. Bir az dincəlmək istəyirdi.

# IV

İri gül dəstəsini məzarın üstünə qoyub, kənara çəkildi. Molla duanı oxuduqdan sonra, çıxıb işinə getdi. Məzarın yanında tək Rəis, bir də, Leyla idi. Ruhinin məzarı yanında oturub ağlayırdı. Bu mənzərə dəhşətli idi. İki sevgili gəncin taleyi belə imiş.

– Qızım. Ağlama. Ölənlə ölmək olmur. Allah rəhmət eləsin. Ruhin yaxşı oğlan idi. Qismət belə imiş. – rəis, kədərlə dilləndi.
– Mən onsuz yaşaya bilmirəm. Onsuz, solmuş güləm. Heç vaxt çiçək açmayacaq, boynu bükülü qalacam.
– Nə edək? Taleyin hökmü budur. – dedim. – Gəlin gedək. Məndə gedirəm.
– Yox. Mən burada qalacam. Siz gedin.

Rəis bilirdi ki, Leyla gələn deyil. Asta addımlarla məzarlıqdan çıxıb, Bakıya üz tutdu. Yolda Kərimov ona zəng vurdu:

– Rəis, bu gün keçiriləcək, əməliyyat?
– Hə. Özüm də gəlirəm. – telefonu qapadı.

Nədənsə, Leylaya demədi ki, sənin atandır, olanların səbəbkarı. Və O, bu gün həbs olunacaqdı. Haram pul yeyib harınlamaq nədir göstərəcək ona.

***

Beşinci polis bölməsinin həyətində yığılan əməliyyat qrupu, Rəis, Amil Səlimovun əmrini gözləyirdi. Rəis çölə çıxıb, əməliyyat qrupuna yaxınlaşdı.

– Mərdəkanda yerləşən bağ evinə gedirik. Alxasov orada qalır. Kişi yayı əla keçirmək istəyir axı! Mən ona göstərəcəm, əsl yayı. Nə isə, gedirik!

Qara rəngli Mikroavtobus bölmənin çölündə dayanıb, əməliyyat qrupunu gözləyərdi. Rəisin əmri ilə hamı mikroavtobusa mindi. Hərəkətə gələn avtobus, asfalta şığıdı. Mikroavtobus şəhərcikləri keçib, Mərdəkan ərazisinə daxil oldu. İki mərtəbəli villanın ərazisinə çatanda, sürətini azaldıb, dar alanda saxladı. Maşından enən xüsusi polis dəstəsi, Rəisin əmrini gözləyirdi.

Qulaq asın. – rəis asta səslə dedi.

Dəstə, rəisi dinləyirdi.

– İki polis hasardan həyətə tullanır və qapını açır. Biz içəri girərək, Alxasovu və onun kiçik dəstəsini tərksilah edirik. Aydın oldu?
– Bəli. – hamı cavab verdi.
– Getdik. – Rəis və arxasınca dəstə darvazaya yaxınlaşdı.

İki polis həyətə tullanıb, qapını açdı. Əməliyyat qrupu İçəri daxil olub, evin qapısını sındırdı. Alxasov, maskalı polisləri görüb, təşvişə düşdü.

– Bu nə deməkdir?! – deyə bağırdı.
– Bu O deməkdir ki, siz həbs olunursunuz! – rəis dedi.

– Siz nə danışırsınız! – Alxasov qışqırdı.

Rəisin əmri ilə, Alxasov qolları bağlanaraq mikroavtobusa aparıldı. İçəridə olan dəstə üzvləri də qolları bağlanaraq, mikroavtobusa aparıldı. Bütün dəstə ifşa olunmuşdu. Səlimov qalıb idi. O, gülümsəyirdi. Bu gülümsəmədə, qələbə, qürur, hissi var idi! Rəis evi yoxlatdırıb, 4000 min Abış dolları pul tapdı. Bu pul, millətdən yığılmış haram pullar idi. Alxasovun haram pulları. Evdən çıxıb, mikroavtobusa əyləşdi. Dəstə də yerini tutub əyləşdi. Mikroavtobus yola düşüb, şöbəyə doğru irəlilədi. Səlimov növbəti qələbəsini qeyd edirdi. Bir tək, Ruhinin məzarını ziyarət edib, qisasın alındı, Ruhin! Demək qalırdı ki, bunu da edəcəkdi, mütləq!

# Epiloq

Qara rəngli məzar daşından, gülərüzlü bir oğlan ona baxırdı. Məsum baxışlı bu gənc, Ruhin idi! Ötən hadisələrdən 1 ay keçmişdi. Polkovnik rütbəsi almış Amil Səlimov, Ruhinin məzarını ziyarət etməyə

gəlmişdi. Əlində tutduğu gül dəstəsini, soyuq daşın üstünə qoydu. Bu gəncin ölümü çox təsirli idi. Eşitdiyi bəzi xəbərlər onu sevindirsə də, Ruhinin ölümü ağır idi. Leyla 2 ay əvvəl Xalasıgilə, Qazaxıstana köçmüşdü. Təhsilini orada davam etdirirdi. Ruhinin atası isə, yavaş-yavaş olanları qəbul edir, Ruhinin yoxluğu ilə barışırdı. Alxasovun cəzası isə, ağır oldu. Dövlətdən qopardığı pullara görə, etdiyi cinayət əməllərinə görə, 28 il azadlıqdan məhrum edildi. Bu az idi ona. Amil Səlimov olsa idi, Alxasova ömürlük cəza verərdi. Dua oxuyub, məzarı tərk etdi. Yolu uzaq idi, Bakıya qayıdırdı. Qayıtmazdan əvvəl, Ruhinin atasının yaşadığı evə sürdü.

6 yanvar, 2021.

# Son